Hürriyyət

30 iyul - 5 avqust / 2020



Müəllif: Manya SƏXAVƏTQIZI

# ŞƏHİDLƏR

*Cahanın sükütü pozulan vaxtı,*
*Günəşin göylərdə sozalan vaxtı,*
*Bir gəncə şəhidlik yazılan vaxtı,*
*Şəhidlər Allahın "əlini tutur",*
*Şəhidlər dünyanı o an unudur.*

*Vətənin gününə ağlayan şəhid,*
*Düşmənin köksünü dağlayan şəhid,*
*Cənnətdə ayağın saxlayan şəhid,*
*Şəhadət zirvəsin bir məskən seçir,*
*Torpaq şəhidlərin qanını içir.*

*Vətənin uğrunda qurban gedən can,*
*Vətən harayına hər vaxt deyən "can",*
*Səni yaşadacaq bu Azərbaycan,*
*Necə ki, yaşatdın vətənin adın,*
*Şəhidim, vətənlə çəkilir adın.*